# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 03 (1686) 16 fevral 2019 - cu il Qiyməti 50 qəpik




# Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə yüksəkixtisaslı, peşəkar kadrların hazırlanmasına dövlət qayğısının artırılması və təhsildə yüksək nəticələr əldə edən tələbələrin təqaüd almaları üçün əlavə imkanların yaradılması məqsədilə qərara alıram:

1. Ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019-cu ilin martın 1-dən 16000 (on altı min) vahid artırılsın və təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayına olan nisbətinin hazırkı 31 faizdən 2019/2020-ci tədris ilində 45 faizə, 2020/2021-ci tədris ilindən başlayaraq isə 50 faizdən az olmayan səviyyəyə çatdırılması təmin edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın:

2.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə cari ilin və növbəti illərin dövlət büdcəsində maliyyə təminatı məsələlərinin həlli ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

2.2. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncamın 1-ci hissəsi 2019-cu il martın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 fevral 2019-cu il.

## BU SAYIMIZDA


AMEA-nın müxbir üzvü Dəmir Hacıyevin 90 illiyi qeyd olunub 2








ATU-ya "İlin ən yaxşı universiteti" mükafatı təqdim edilib 3

V Bakı-Malatya Orqan Transplantasiya Günləri konfransı 4

ATU-da Startapla bağlı seminar keçirilib 3







«Uşaq cərrahlığı kafedrasının 1 əsrə yaxın yaşı var» 4





Rezidentlərin yekun qiymətləndirilməsinə dair treninq 8

# Prezident gəncləri təbrik edib



**Azərbaycan gəncləri peşəkar olmalı, milli və vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Prezident İlham Əliyev Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında belə deyib. “Haqlı olaraq gənclərimizlə fəxr edə bilərik”, - deyən dövlət başçısı şəhidlərimizin böyük əksəriyyətinin gənclər olduğunu vurğulayıb. O, qeyd edib ki, hər bir gəncin əsas vəzifəsi müstəqilliyimizi möhkəmləndirmək olmalıdır. Müstəqillik dövründə yaşamağın gənclər üçün böyük xoşbəxtlik olduğunu vurğulayan dövlət başçısı ölkənin hərtərəfli inkişafında gənclərin roluna toxunub, onların cəmiyyətin fəal üzvləri olduğunu deyib.**

Toplantıda Prezident İlham Əliyev Azərbaycanın son illərdə qazandığı uğurlardan və sosial-iqtisadi inkişafdan danışıb, ölkəmizin beynəlxalq nüfuzunun artdığını vurğulayıb, Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hüquqi, siyasi və digər cəhətlərdən mövqelərimizin möhkəmləndiyini qeyd edib.

Prezident İlham Əliyev bu günün ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə təsis edildiyini xatırladıb, milli liderin gənclərə həmişə böyük sevgi və qayğı ilə yanaşdığını bildirib. Dövlət başçısı Azərbaycanda müasir gənclər siyasətinin 1994-cü ildən başladığını, həmin il Ulu Öndərin o zaman mövcud olan çətinliklərə baxmayaraq, Gənclər və İdman Nazirliyini yaratdığını və bunun da gənclər üçün imkanlar açdığını vurğulayıb. Prezident İlham Əliyev ölkəmizdə gənclərlə bağlı dövlət proqramlarının qəbul olunduğunu, müxtəlif mötəbər beynəlxalq tədbirlərin keçirildiyini bildirib, bölgələrdə Gənclər mərkəzlərinin, Olimpiya İdman komplekslərinin açıldığını qeyd edib.

Tədbirdə bir qrup gənc təltif edilib. Onlar arasında ATU-nun 2013-cü il məzunu Allahverdi Şahverənov da olub.

Qeyd edək ki, tədbirdə ATU-da fəaliyyət göstərən ictimai təşkilatlardan, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı, YAP Gənclər Birliyinin aktiv üzvləri də iştirak edib.

# AMEA-nın müxbir üzvü Dəmir Hacıyevin 90 illiyi qeyd olunub

**Fevralın 7-də AMEA-nın Əsas binasında görkəmli bioloq alim, həkim və pedaqoq, AMEA-nın müxbir üzvü Dəmir Hacıyevin anadan olmasının 90 illiyinə həsr edilən konfrans keçirilib.**




Biologiya və Tibb Elmləri Bölməsinin (BTEB) təşkilatçılığı ilə baş tutan tədbirdə AMEA-nın prezidenti, akademik Akif Əlizadə çıxış edərək D.Hacıyevin Azərbaycan tibb elminin inkişafında və təbliğində müstəsna xidmətlərindən, alimin yüksək insani keyfiyyətlərindən danışıb. O, Dəmir Hacıyevin öz intellektual səviyyəsi, təfəkkürü və xarakteri ilə onu tanıyanlar arasında xüsusi hörmət qazandığını qeyd edib. Görkəmli alimlə bağlı xatirələrini




bölüşən AMEA rəhbəri onun 1964-1999-cu illərdə Azərbaycan Tibb Universitetinin tibbi biologiya və genetika kafedrasına rəhbərlik etdiyini və həmin dövrdə kafedranın elmi-tədqiqat və tədris proqramlarında mühüm dəyişikliklərin baş verdiyini qeyd edib. Bildirib ki, sözügedən kafedrada respublika faunasının pareontoloji baxımdan tədqiqi ilə məşğul olunub və D.Hacıyev ömrünün yarısını bu kafedranın yenidən qurulmasına həsr edib.

Akademik A.Əlizadə bioloq alimin yüksək ixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət yetirdiyini də vurğulayıb. O, D.Hacıyevin yaratdığı elmi məktəbin müasir dövrdə də uğurla fəaliyyət göstərdiyini, öz yeni nailiyyətləri ilə bütün dünyada tanındığını vurğulayıb. Sonra çıxış edən BTEB-in akademik-katibi, akademik Əhliman Əmiraslanov görkəmli alimin elmi, pedaqoji və ictimai fəaliyyəti barədə məlumat verib. Bildirib ki, D.Hacıyev əsas fəaliyyəti tibb universiteti ilə bağlı olub, o, 30 ildən çox bu təhsil ocağında çalışıb. Akademik-katib alimin elmi tədqiqatlarının əsas istiqamətini paleontologiya, paleobiologiya, paleoteratologiya və paleopatologiya, eləcə də zoologiya, stratiqrafiya, tibbi biologiya, tibbi genetika və kosmik biologiyanın təşkil etdiyini diqqətə çatdırıb. Görkəmli bioloqun elmi əsərlərinin və dərsliklərinin, mühazirə və məruzələrinin böyük maraqla qarşılandığını deyən Ə.Əmiraslanov D.Hacıyevin tələbəsinin hazırda onun fəaliyyət göstərdiyi kafedraya rəhbərlik etdiyini bildirib. O, D.Hacıyevin şəxsiyyətində xeyirxahlıq, peşəsinə olan sonsuz sədaqət hissi, tələbələrinə göstərdiyi qayğıkeş münasibət kimi keyfiyyətlərin cəmləndiyi vurğulayıb.

Daha sonra ATU-nun Tibbi biologiya və genetika kafedrasının müdiri, dosent Vaqif Kərimovun “AMEA-nın müxbir üzvü Dəmir Hacıyevin elmi və elmi-təşkilati fəaliyyəti” mövzusunda məruzəsi dinlənilib. Məruzəçi bildirib ki, alim uzun müddət Avrasiyanın miosen faunasını (hipparion) tədqiq edib. Qədim məməlilərin yeni cins və növlərini təsvir edib, Azıx mağarasında çoxtəbəqəli qədim insan düşərgəsini öyrənib. Bununla yanaşı, 60-cı illərdə Məmmədəli Hüseynov tərəfindən Dağlıq Qarabağın cənubunda aşkar edilmiş qədim insan məskəninin öyrənilməsində, dünya miqyasına qaldırılmasında Dəmir Hacıyevin böyük rolu olub. O, Azıx mağarasının 5-ci təbəqəsində aşkar edilən daş alətlərin Orta Aşel mədəniyyətinə mənsub olduğunu təsdiqləyib.

Tədbirdə ATU-nun rektoru, professor Gəray Gəraybəyli, Fiziologiya İnstitutunun direktoru, biologiya üzrə elmlər doktoru Ulduz Həşimova, Təbiət Tarixi Muzeyinin direktoru, biologiya üzrə fəlsəfə doktoru Tariyel Eybatov və digərləri çıxış edərək görkəmli alim haqqında xatirələrini bölüşüb, onun insani keyfiyyətlərindən, zəngin elmi yaradıcılığından danışıblar. Sonda professor Dəmir Hacıyev haqqında sənədli film nümayiş etdirilib.

# Xocalı soyqırımının 27-ci ildönümünün keçirilməsinə dair tədbirlər planı təsdiq edilib

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin Sərəncamı ilə “Xocalı soyqırımının iyirmi yeddinci ildönümünün keçirilməsinə dair tədbirlər planı” təsdiq edilib.**

AZƏRTAC xəbər verir ki, tədbirlər planında Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, ictimaiyyət nümayəndələri tərəfindən Şəhidlər xiyabanının ziyarət edilməsi, Azərbaycanın xarici ölkələrdəki səfirliklərində, konsulluqlarında və diaspor təşkilatlarında soyqırımı ilə bağlı tədbirlərin təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən teleradio kanallarında qanlı qırğını əks etdirən materialların yayılması və internet şəbəkəsində mütəmadi olaraq yenilənməsi nəzərdə tutulub.

Bundan başqa, ölkəmizdə fəaliyyət göstərən dini konfessiya və qurumların iştirakı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım tədbirləri təşkil ediləcək, idarə və təşkilatlarda, təhsil və mədəniyyət müəssisələrində xatirə gecələri, foto-rəsm sərgiləri, şəhidlərlə görüşlər keçiriləcək, Azərbaycan ərazi bütövlüyü uğrunda mübarizəyə həsr edilən sənədli və bədii filmlər nümayiş olunacaq.

Xocalılıların müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Goranboy, Bərdə, Sabirabad, Göyçay, Zaqatala, Oğuz, Balakən) dövlət qurumları rəhbərlərinin, Milli Məclisin deputatlarının və ziyalıların şəhid ailələri ilə görüşləri təşkil ediləcək.

Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr olunacaq. Həmin gün saat 17.00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək. Xocalı soyqırımı günü ilə əlaqədar respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın dövlət bayraqları endiriləcək.



# ATU-ya "İlin ən yaxşı universiteti" mükafatı təqdim edilib

## Rektor Gəray Gəraybəyli: "Tələbələrin daha aktiv olmasını istəyirik"

**Azərbaycanda yeganə ali tibb təhsili verən qocaman universitet - Azərbaycan Tibb Universiteti ilin ən yaxşısı seçilib. Xəbər verdiyimiz kimi, ATU facebook-da regionun ən böyük təhsil səhifəsi olan "Azərbaycan Universitetləri" tərəfindən keçirilən "2018-ci ilin ən yaxşı universiteti" sosial sorğusunun qalibi olub.**



Fevralın 5-də ATU-nun rektoru, professor Gəray Gəraybəyli "Azərbaycan Universitetləri" facebook səhifəsinin rəhbəri Zöhrab Süleymanla görüşüb. Görüşdə Zöhrab Süleyman artıq 8 ildir fəaliyyət göstərən bu səhifənin təkcə Azərbaycanda deyil, bütün Qafqaz regionunda ən böyük izləyici sayına malik olduğunu, səhifənin təhsillə əlaqəli bütün sahələri əhatə etdiyini bildirib: "177 min izləyicisi olan səhifəmizdə ölkənin ali təhsil müəssisələri haqqında düzgün, dolğun məlumatları yaymağa çalışırıq. Bu yaxınlarda universitetlər arasında yarış keçirmək ideyasını reallaşdırdıq. Tələbələr arasında keçirilən sorğu nəticəsində məhz ATU qalib seçilib".

Sorğu zamanı 3 kriteriya üzrə ilin universiteti seçilib: akademik göstəricilər, qəbul nəticələri və sosial mediada olan aktivlik. Bu 3 meyar üzrə 2018-ci il üçün məhz ATU seçilməyi bacarıb.

Professor Gəray Gəraybəyli universitetə səs verən sorğu iştirakçılarına və səhifə rəhbərinə göstərilən etimada görə təşəkkür edib. Rektor ATU-da aparılan islahatlar, qarşıya qoyulan məqsədlər haqqında qonağa məlumat verib, tələbələrin hər bir sahədə aktiv olmasının tərəfdarı olduğunu, onların müxtəlif layihələrdə iştirakının stimullaşdırıldığını deyib: "Biz tələbələri sosial layihələrdə iştiraka həvəsləndiririk. Həmçinin, tələbələrimizin universitetin idarəetməsində iştirakına da imkan yaradırıq ki, onlar rəhbərliklə birbaşa əlaqə saxlaya bilsinlər. Tələbə-dekanlar uiversitetimizin Böyük Elmi Şurasında, həmçinin fakültə və rektoryanı şuralarda fəal iştirak edirlər. Belə ki, Böyük Elmi Şuranın 64 nəfər üzvündən 6-sı tələbədir". Bunlarla yanaşı bəzi tələbələrin destruktiv ideyaları reallaşdırmağa çalışdıqlarından təəssüfləndiyini dilə gətirən rektor belə hallara qarşı mübarizə aparıldığını da bildirib.

Ötən tədris ili ərzində həyata keçirilən yeniliklərə gəlincə, G.Gəraybəyli bunlar sırasında aralıq qiymətləndirmə imtahanlarının keçirilməsini, yay praktikasının ləğv olunaraq, gündəlik proqrama daxil edilməsini, kurasiya sisteminin ləğv edildiyini söyləyib. Rektor qonağın diqqətinə çatdırıb ki, bu yeniliklər tələbə və müəllim obyektivliyinin təminatı, qiymətləndirmənin daha düzgün aparılması, vaxta qənaət baxımından əhəmiyyət daşıyır. Universitetin günbəgün müasirləşməsi, tədris-təhsil sisteminin daha da təkmilləşdirilməsi istiqamətində aparılan işlərdən bəhs edən rektor bu prosesin gələcəkdə də davam etdiriləcəyini bildirib.

Görüşün sonunda rektor Gəray Gəraybəyliyə "Azərbaycan Universitetləri" səhifəsi tərəfindən "2018-ci ilin ən yaxşı universiteti" sosial sorğusunun qalibi kimi diplom və mükafat təqdim olunub.

# Rektoryanı şuranın növbəti iclası keçirilib

**Fevralın 12-də ATU-nun Rektoryanı Şurasının növbəti iclası keçirilib. Prorektorlar və fakültə dekanlarının, struktur bölmələrin rəhbərlərinin iştirak etdiyi iclasda Azərbaycan Respublikası Təhsil Nazirinin 15.11.2017-ci il tarixli 5/2 №-li əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində tibb təhsilinin əsas təhsili üzrə təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair Qaydalar"ın 5.1.3 bəndinə əsasən II müalicə-profilaktika fakültəsinin I kurs tələbəsi Rüstəm Rəsulova xəstəliyi ilə əlaqədar olaraq akademik məzuniyyət verilib.**



Yuxarıda adı çəkilən "Qaydalar"ın müvafiq bəndinə əsasən I müalicə-profilaktika fakültəsinin III kurs tələbəsi Turqay Hüseynov, I kurs tələbəsi Leyla Həmzəyeva, II müalicə-profilaktika fakültəsinə 2011/2012-ci tədris ilində ödənişli qəbul olmuş Nurlan Baxışlı, ictimai səhiyyə fakültəsinin II kurs tələbəsi Əli Əzimzadə, IV kurs tələbəsi Ceyran Rzabəyli, VI kurs tələbəsi Səid Şərafətov universitetdən xaric ediliblər.

2018/2019-cu tədris ilində hazırlıq kursunun dinləyicisi olan İran vətəndaşı Sania Orouji Ahad qızı isə Azərbaycan dili, fizika, kimya və biologiya fənnlərinin hər birinə ayrılmış ümumi saatların 20%-dən çoxunu buraxdığına və universitetlə dinləyici arasında bağlanmış müqavilənin 2.2.1. bəndini pozduğuna görə universitetdən xaric edilib. 2018/2019-cu tədris ilinin payız semestrinin başlanğıcına qədər akademik borcları qalmış fənlər üzrə heç bir kredit götürmədiklərinə və payız semestrinin sonuna qədər universitet ilə heç bir əlaqə saxlamadıqlarına görə Türkiyə vətəndaşları Hakan Karslı, Gökhan Karslı, Elçin Memmedov və İran vətəndaşı Sima Mousavi universitetdən xaric ediliblər.

II müalicə-profilaktika fakültəsinin I kurs tələbəsi Lalə Ağayeva "Virtual Test Mərkəzində imtahanların təşkili və biliklərin qiymətləndirmə Qaydaları"nın 2-ci bəndini pozaraq biofiziki və bioüzvi kimya fənnindən imtahan zamanı yardımçı yazılı məlumatlardan, I kurs tələbəsi Rüfət Qubadzadə isə "Nitq mədəniyyəti" fənnindən imtahan zamanı mobil telefondan istifadə etdiyinə görə həmin fənlərdən imtahanın nəticələri ləğv edilib.

Hazırlıq kursunun dinləyicisi, Türkiyə vətəndaşı Volkan Gökmenə universitetin nizam-intizam qaydalarını pozduğuna (whatsapp sosial şəbəkəsindəki yazışmalarında dekanlıq işçilərini ağır təhqir etdiyinə) görə şiddətli töhmət verilib.

Hazırlıq kursunun dinləyiciləri olan Türkiyə vətəndaşları Mustafa Cem Belene Duran və Fırat Yıldız Arif oğlunun Azərbaycan dili fənninə ayrılmış ümumi saatların 20%-ni üzürsüz səbəbdən buraxdığına və onlarla bağlanmış müqavilənin şərtlərini pozduqlarına görə hazırlıq kursunun II dövründə güzəştli qiymətlərlə yenidən oxumalarına qərar verilib.

Universitetin rektoru, professor Gəray Gəraybəyli burada qəbul edilən qərarların ünvanına çatdırılmasını tapşırıb və bu istiqamətdə məqsədyönlü fəaliyyət göstərilməsini tövsiyə edib.

# ATU-da Startapla bağlı seminar keçirilib

**Azərbaycan Tibb Universitetində bu ilin 7-8 fevral tarixlərində startap qrupunun tələbələri üçün "İnnovativ ideyaların biznesə çevrilməsi" mövzusunda seminar keçirildi. İki gün davam edən seminar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 yanvar 2019-cu il tarixli, 881 saylı "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" sərəncamdan irəli gələn öhdəliklərin həyata keçirilməsinə həsr olundu.**



Seminarın əsas mövzusu startap və innovativ inkişafin ideyası və onun məqsədləri, həyata keçirilməsi, bu layihələrin gələcəkdə biznesə çevrilməsi ilə bağlı iştirakçılara ətraflı məlumatların verilməsindən ibarət oldu. Seminarda ictimai səhiyyə üzrə mütəxəssis, tibb üzrə fəlsəfə doktoru Nabil Seyidov startap layihələrinin beynəlxalq təcrübədə uğurla həyata keçirilməsi haqqında ətraflı məlumat verdi. O, səhiyyə sahəsində həyata keçirilən çoxsaylı startap layihələrindən misallar gətirərək tələbələrdə dolğun təsəvvür yaratdı. Nabil Seyidov təqdimatdan sonra tələbələrlə startap haqqında hərtərəfli diskusiya apardı.



Tədbirdə həmçinin Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun Layihələr ilə iş sektorunun aparıcı məsləhətçisi Anar Cəfərov, həmin nazirliyin Elektron təhlükəsizlik xidmətinin fərdi məlumatlarla işin tənzimlənməsi sektorunun müdiri Bəhram Cəfərli də çıxış etdilər. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin əməkdaşları startap layihələrinin cəmiyyətə və icraçılara verdiyi faydalara toxunaraq, hər kəsin bu layihələrdə iştirak edərək uğur qazanmaq imkanlarından danışdılar. Fondun nümayəndələri Fond tərəfindən startap layihələrinə göstərilən dəstək, maliyyə mexanizmləri, qrant müsabiqələrində iştirak və güzəştli kreditlərin verilmə qaydaları haqqında tələbələrə ətraflı məlumat verdilər. Nümayəndələr səhiyyə sahələri üzrə startap layihələri ilə bağlı tələbələrin verdikləri bütün suallara aydınlıq gətirdilər. Sonra "Mednoti" və "Sağlam Həyat Platforması" startaplarının icraçıları İlqar Tağıyev və Şahlar Paşayev öz fəaliyyətləri, əldə etdikləri təcrübələr, layihələrin faydaları, İnformasiya Texnologiyaları İnkişafı Dövlət Fondunun onlara göstərdiyi maddi və informasiya dəstəyi barədə təqdimat etdilər.

Tədbir zamanı ATU-nun elmi-tibbi koordinatoru Sevil Əsədova 2018-ci ildə ATU-da 5 nəfər tələbədən ibarət Startap komitəsinin təşkil olunduğunu, bu komitənin facebook səhifəsinin fəaliyyət göstərdiyini diqqətə çatdırdı. O, qeyd etdi ki, ATU-da startapla bağlı işlərin aparılmasına baxmayaraq, startapa dəstək verən dövlət təşkilatlarınının nümayəndələrinin iştirakı ilə belə bir tədbir ilk dəfədir ki, universitetdə keçirilir.



Qabil ABDULLAYEV

# «Uşaq cərrahlığı kafedrasının 1 əsrə yaxın yaşı var»

◆ Fevralın 9- da Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında ATU-nun uşaq cərrahlığı kafedrasının yaranmasının 80 illiyinə həsr olunmuş uşaq cərrahiyyəsi üzrə elmi-praktiki konfrans keçirilib. Konfrans Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Azərbaycan Tibb Universiteti tərəfindən təşkil olunub. Azərbaycanın dövlət himni səsləndikdən sonra konfransın işinə start verilib.



ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov konfrans iştirakçılarını salamlayaraq, tədbirin əhəmiyyətindən danışıb. O qeyd edib ki, uşaq cərrahlığı kafedrası 1938-ci ildə hazırkı ATU-nun tərkibində yaranıb: "Uşaq cərrahlığı kafedrasının təxminən 1 əsrə yaxın yaşı var və bu kafedrada çalışan insanlar, onların yetişdirdiyi mütəxəssislər daimi olaraq Azərbaycan xalqının xidmətində dayanıb. Bu konfransda iştirak edən uşaq cərrahlarının böyük hissəsi də məhz uşaq cərrahlığı kafedrasının yetirmələridir. Bu mütəxəssislər gənc nəslin sağlam böyüməsində öz bilik və bacarıqlarını əsirgəməyiblər".

Daha sonra çıxış edən Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev uşaq cərrahiyyəsinin çox geniş sahəni əhatə etdiyini bildirib. Onun sözlərinə görə, uşaq cərrahları baş-boyun nahiyəsi, döş qəfəsi, qarın boşluğu, sidik-cinsiyyət sistemi və hətta neonatal dövrdə cərrahi müdaxilələr icra edən həkimlərdir: "Bu baxımdan uşaq cərrahları çox böyük elmi potensiala sahib olmalıdırlar ki, həm uşaqlarda anadangəlmə patologiyaların, həm də qazanılma patologiyaların diaqnostikasını və müalicəsini mükəmməl bilsinlər. Hesab edirəm ki, konfrans bu baxımdan bizə çox böyük töhfə vermiş olacaq. Konfransda həm Azərbaycanda, həm də xarici ölkələrdə ixtisaslaşmış mütəxəssislər uşaq cərrahlığının ayrı-ayrı bölmələri haqda danışacaqlar. Burada neonatal cərrahiyyəyə, uşaq onkologiyasına, uşaq urologiyasına, uşaq travmatologiya-ortopediyasına, baş-boyun cərrahiyyəsinə, abdominal cərrahiyyəyə, antenatal dövrdə döldə olan cərrahi patologiyaların diaqnostikasına və s. aid maraqlı çıxışlar yer alıb".

Klinikanın baş həkimi, uşaq cərrahlığı kafedrasının müdiri, professor Ramiz Poluxov konfransın əhəmiyyətindən söz açıb. O, uşaq cərrahiyyəsi mövzusunda konfransın Azərbaycanda keçirildiyini müsbət hadisə adlandırıb: "Belə elmi-praktiki konfransların keçirilməsinin yetişməkdə olan gənc kadrların peşəkar mütəxəssis kimi formalaşmasında da böyük rolu var".

Azərbaycan Uşaq Cərrahlar Assosiasiyasının sədri, professor Çingiz Quliyev isə uşaq cərrahlığı kafedrasının fəaliyyəti, nəzdindəki əməliyyatlar, aparılan elmi işlər haqqında geniş məlumat verib.



Elmi-praktik konfransda tanınmış tibb mütəxəssisləri uşaqlarda ən çox rast gəlinən "Uşaqlarda Hirşprunq xəstəliyinin diaqnostika və müalicəsi", "Uşaqlarda qasıq yırtığının endocərrahi müalicəsi", "Anadangəlmə əyripəncəliyin müasir müalicə metodları", "Hamiləlik zamanı ana bətnində aparılan invaziv prosedurlar", "Koxlear implant əməliyyatından sonra nitqin inkişafı" və s. mövzularda müzakirələr aparıblar.

# V Bakı-Malatya Orqan Transplantasiya Günləri konfransı

**◆ Fevralın 15-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında (TCK) V Bakı-Malatya Orqan Transplantasiya Günləri konfransı başlayıb. Konfrans ATU-nun I cərrahi xəstəliklər kafedrasının 100 illik yubileyinə həsr olunub.**



Konfrans öz işinə Azərbaycanın və Türkiyənin Dövlət himnlərinin səslənməsi ilə başladı.

ATU-nun TCK-nın direktoru, professor Surxay Hadıyev açılış nitqi ilə çıxış edərək, artıq ənənə halını almış Bakı-Malatya Orqan Transplantasiya Günlərinin mahiyyətindən danışdı. O qeyd etdi, bu tip konfransların keçirilməsi təhsil sahəsinin, eləcə də, səhiyyənin inkişafı üçün çox önəmlidir: "Baxmayaraq ki, artıq 5-ci konfrans keçirilir, hər dəfə maraqlı mövzular müzakirəyə çıxarılır, bu sahədə əldə edilən uğurlar və yeniliklər barədə məlumat verilir. Bu baxımdan konfransın əhəmiyyətini xüsusi qeyd etmək istərdim".



Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev konfransın işini yüksək qiymətləndirdi. Onun sözlərinə görə, bu tədbirin sözügedən kafedrada peşəkar kadrların hazırlanmasında da böyük rolu var: "Mən Tibb Universitetində oxuyarkən, bu kafedranın artıq şöhrəti universitetin hüdudlarından kənara yayılmışdı. Sevindirici haldır ki, bu, indi də davam edir. Bu gün Azərbaycanda tibb, səhiyyə sahəsi çox inkişaf edib və etməkdədir. Konfransın işinə uğurlar diləyirəm".

Malatya Universitetinin professoru, qaraciyər transplantasiya şöbəsinin rəhbəri Sezai Yılmaz konfransın bilik mübadiləsi aparmaq baxımından önəmini qeyd etdi: "Bu tip tədbirləri təşkil etmək çox çətindir. Amma biz artıq qarşılıqlı olaraq, 5-ci konfransı keçiririk. Bu konfransı tibb sahəsinin inkişafı üçün mühüm hadisə hesab edirəm. Çünki transplantologiya olduqca həssas sahədir".

ATU-nun I cərrahiyyə xəstəliklər kafedrasının müdiri, translantoloq, professor Nuru Bayramov çıxış edərək, kafedranın fəaliyyəti, Cərrahiyyə Klinikasında transplantologiya şöbəsində aparılan əməliyyatlar, yeniliklər haqqında ətraflı məlumat verdi.

Konfransda azərbaycanlı mütəxəssislərlə yanaşı, türkiyəli uzmanlar da iştirak edib. İki paneldən ibarət konfransın birinci hissəsinə professorlar Surxay Hadıyev və Sezai Yılmazın sədrlik edib. Birinci paneldə professor Tevfiq Tolqa Şahin "Marginal greftlərdə maşın perfuziyası və müalicəsi", professor Adil Başkıran "Qaraciyər transplantasiyası və hamiləlik", dosent köməkçisi doktor Veysel Ersan "Qaraciyər transplantasiyasında immunosupressiya protokolu", Ruslan Məmmədov "Qaraciyər transplantasiyasında mikro-RNA-nın klinik əhəmiyyəti – erkən nəticələr" mövzularında çıxış ediblər.

Professorlar Tevfik Tolga Şahin və Nuru Bayramovun sədri olduqları ikinci paneldə Sevinc Salahova "Qaraciyər transplantasiyasında dalaq və qreft elastoqrafiyasının əhəmiyyəti", dosent köməkçisi doktor Cemalettin Koç "Postransplantasiya – çətin hallar", professor Sezai Yılmaz "Xenotransplantasiya", dosent Volkan İnce "Erkən mərhələdə hepatosellüler xərçəngdə rezeksiyon, yoxsa transplantasya" mövzularında məruzə ediblər.

Qeyd edək ki, konfrans iştirakçılarına Səhiyyə Nazirliyi tərəfindən 7 Davamedici Tibbi Təhsil Balı veriləcək.

**ATU-nun mətbuat xidməti**

# Əməkdaşımız əcnəbilər qarşısında mühazirə söyləyib

**Azərbaycan Tibb Universitetinin Azərbaycan dili kafedrasının dosenti Dürdanə Rəhimzadə Türkiyədə keçirilən müxtəlif tədbirlərdə iştirak edib. D. Rəhimzadə həm Antalyada keçirilən XV Araşdırma Yöntəmləri Seminarında iştirak edb, həm də İstanbulda Gənc Azərbaycanlılar Dərnəyinin toplantısında "Türk-Azərbaycan dil əlaqələri" mövzusunda mühazirə oxuyub.**



Yanvarın sonu, fevralın əvvəlində Antalyada keçirilən "XV Araştırma Yöntemleri Seminarında" müxtəlif mövzularda müzakirələr təşkil olunub. Tədbirdə hər bir sahəyə uyğun dünya miqyaslı nüfuzlu mütəxəssislər iştirak ediblər. ATU-nun təmsilçisi Dürdanə Rəhimzadə "Akademik writing" seminarında iştirak edib. Burada seminar iştirakçıları impakt faktoru yüksək olan nüfuzlu beynəlxalq jurnallarda məqalə dərc etməyin xüsusi qaydaları ilə tanış olublar. Qeyd olunub ki, bu jurnallar göndərilən məqalələrə çox yüksək tələblər qoymaqla yanaşı, məqalənin düzgün tərtibatına xüsusi önəm verir və məqalənin qəbulu çox zaman bu qaydalara nə dərəcədə riayət olunmasından asılı olur. Seminarda məqalənin başlığına, abstrakt hissəsinin tərtibinə verilən tələblər təhlil edilib, açar sözlərin düzgün seçilməsi, "introduction" hissəsinə verilən tələblər, sitatların düzgün verilmə qaydası, ədəbiyyat siyahısı tərtibinin beynəlxalq tələbləri ətraflı izah edilib.

Fevralı 4-5-də D.Rəhimzadə İstanbulda Gənc Azərbaycanlılar Dərnəyinin qonağı olub, burada yaşayan soydaşlarımız, həmçinin Azərbaycana maraq göstərən əcnəbi vətəndaşlarla görüşüb. Görüşdə ATU təmsilçisi "Azərbaycan-türk dil əlaqələri" mövzusunda mühazirə oxuyub.

Növbət günlərdə D.Rəhimzadə Ankarada Qazi Universitetinin TÖMER (Türkçe Öyretim Merkezi) bölməsində qonaq olub və türk dilinin əcnəbilərə tədrisi metodikası ilə tanış olub.

Qeyd edək ki, dosent Dürdanə Rəhimzadə bundan əvvəl də beynəlxalq tədbirlərdə iştirak edib. İsveç, Polşa, Rumıniya, Türkiyə və digər ölkələrdə beynəlxalq konfrans, qurultay, simpozium və konfranslarda məruzələrlə çıxış edib.

Qeyd edək ki, dosent Dürdanə Rəhimzadə bundan əvvəl də beynəlxalq tədbirlərdə iştirak edib. İsveç, Polşa, Rumıniya, Türkiyə və digər ölkələrdə beynəlxalq konfrans, qurultay, simpozium və qurultaylarda məruzələrlə çıxış edib.

# Rezidenturanın problemləri və onların həlli yolları müzakirə olunub

**Fevralın 8-də ATU- nun Tədris Cərrahiyyə Klinikasında rezidentlərin tədrisi ilə bağlı geniş toplantı keçirilib. Toplantıda rezidentlərin fəaliyyəti, nizam-intizamı, eləcə də onları narahat edən bir sıra məsələlər müzakirə olunub.**



Tədbirdə çıxış edən Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev hazırda klinikada 230-a yaxın rezidentin təhsil aldığını bildirib. Rezidenturanı "tibb təhsilinin ən böyük nailiyyəti" adlandıran S.Hadıyevin sözlərinə görə, məhz bu sistem vasitəsilə bütün dünyada yüksək səviyyəli mütəxəssis hazırlığı aparılır.

Tədris Cərrahiyyə Klinikasının rezidentlər üzrə məsul şəxsi assistent Azər Hümmətov klinikada rezidentlər üçün təşkil olunan seminarlardan danışıb, bu cür tədbirlərin artıq ənənə halını aldığını deyib. Onun sözlərinə görə, seminarların məqsədi rezidentlərə əsas ilkin cərrahi bacarıqlar, həmçinin laparoskopik alətlərlə tanışlıq və laparoskopik bacarıqların öyrədilməsindən ibarətdir.

Tədbirdə I mama-ginekologiya kafedrasının müdiri, professor Elmira Əliyeva, ümumi cərrahiyyə kafedrasının müdiri, professor Elçin Ağayev, II cərrahi xəstəliklər şöbəsinin müdiri, professor Xaləddin Musayev , LOR kafedrasının assistentləri Ayaz Qasımov və Şirazi İbrahimov çıxış edərək rezidenturanın inkişafı üçün zəruri olan tədbirlərin həyata keçirilməsi haqqında fikirlərini səsləndiriblər.

Çıxışlarda səslənən fikirlərə münasibət bildirən rezidentura və magistratura şöbəsinin müdiri, professor Rizvan Məmmədov bildirib ki, toplantının məqsədi nizam-intizam, işə davamiyyət, kafedra və şöbələrdə tabellərin düzgün doldurulmasına nəzarətin gücləndirilməsindən ibarətdir. Sözünə davam edən şöbə müdiri vurğulayıb ki, universitetin rektoru, professor Gəray Gəraybəylinin göstərişinə əsasən növbəti tədris ilindən etibarən bütün kurslar üzrə test suallarının yenilənməsi, o cümlədən sonuncu kurslarda yekun attestasiya üçün nəzərdə tu-



tulmuş yeni tipli test suallarının hazırlanması nəzərdə tutulub. R. Məmmədov qeyd edib ki, rezidentlərin biliyinin daha da yaxşılaşdırılması üçün onların xəstə müalicəsi və müayinəsində iştirakının təmin edilməsi zəruridir. Bundan başqa rezidentlərin fəaliyyətinin daha da gücləndirilməsi üçün müzakirə əsnasında hazırlanacaq təkliflər universitet rəhbərliyinə təqdim olunacaq.

Şöbə müdiri çıxışının sonunda dedi ki, hər il olduğu kimi bu il də rezidentlərin elmi konfransının keçirilməsi üçün tezis və məqalələrin toplanılmasına başlanılıb və bu materialların hazırlanıb vaxtında nəşr edilməsinin tezləşdirilməsi də tədbir iştirakçılarının nəzərinə çatdırdı.

R. Məmmədov toplantının sonunda tədbir iştirakçılarının suallarını cavablandırıb.

**M.ƏLƏKBƏRLİ**

# Rezidentlərə anastomoz qaydaları nümayiş etdirilib

**Fevralin 2-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında rezidentlər üçün ürək-damar cərrahiyyəsinə dair növbəti seminar keçirilib. Bu dəfə gənc həkimlərə damar anastomoz texnikası haqqında məlumat verilib.**



ATU-nun ürək-damar cərrahiyyəsi şöbəsinin müdiri, uzman həkim Mirəli Məcidov qeyd edib ki, anastomoz ürək-damar cərrahiyyəsində çox önəmli yerlərdən birini tutur. O, qeyd edib ki, anastomoz texnikasının sırf ürək-damar cərrahiyyəsinə aid olmasına baxmayaraq, rezidentlərin hər biri bu üsul haqqında həm nəzəri, həm də praktiki bacarıqlara malik olmalıdır. Çünki praktikada elə hallar olur ki, yalnız cərrahiyyə sahəsinin həkimləri yox, digər sahə mütəxəssislərinə də damar anastomozları, damarlara müdaxilə qaydalarını bilmək lazım olur.

Tədris Cərrahiyə Klinikasının rezidentlər üzrə məsul şəxsi, I cərrahi xəstəliklər kafedrasının assistenti, t.ü.f.d. Azər Hümmətov isə qeyd edib ki, mütəmadi olaraq keçirilən kursların əsas məqsədi rezidentlərə əsas ilkin cərrahi bacarıqlar, həmçinin laparoskopik alətlərlə tanışlıq və laparoskopik bacarıqların öyrədilməsidir.

Seminarda klinikanın mütəxəssisləri tərəfindən damar anastomoz qaydaları haqqında, ürək şuntlama əməliyyatlarında anastomozların aparılma qaydaları, istifadə olunan qreftlərdən, konyvitlər barədə məlumat verilib. Anastomoz zamanı baş verə biləcək fəsadlar, ağırlaşmalar, onların təfərrüatlarından danışılıb.

# Tədris Terapevtik Klinikasında "Praktik ümumi tibbi mikrobiologiya" kursu keçirilib

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının Mərkəzi Laboratoriyasında "Praktik ümumi tibbi mikrobiologiya" kursu keçirilib. Kurs, laboratoriyanın müdiri İgəndər Karaltı və keyfiyyət üzrə menecer Sevinc Qəmbərovanın təşkilatçılığı ilə baş tutub.**



Kursda ümumi vasitələr, alətlər və avadanlıqlarla tanışlıq, qidalı mühitlərin hazırlanması, inokulyasiya, pasajetmə metodları, mikrorqanizmlərin təsnifatı, boyama metodları, stok metodları, identifikasiyada istifadə edilən sürətli testlər, biokimyəvi indefikasiya testləri, nümunə alma və nümunədən imtina kriteriyaları mövzuları ətrafında mühazirələr dinlənilib və praktik iş aparılıb.

Qeyd edək ki, kurs 2 gün davam edib.

# Uşaqlardakı nevroloji problemlərə ciddi fikir verilməlidir

**Professor Zakir Əliyev: "Müalicəyə düzgün əməl etmək mütləqdir"**



**Valideynlər azyaşlı uşaqlar və körpələrdə heç bir əlaməti nəzərdən qaçırmamalıdır. Çünki bəzən uşağın davranışında adi görürən hansısa dəyişikik ciddi nevroloji problemlərdən xəbər verə bilər.**

Tanınmış mütəxəssis, Azərbaycan Tibb Universitetinin nevrologiya kafedrasının professoru Zakir Əliyev deyir ki, müasir dövrdə uşaqlar arasında nevroloji patologiyalar əsasən dörd istiqamətdə müşahidə olunur: əqli inkişafdan geri qalma, yaddaşdan kəmlik, hərəkətin zəifləməsi (iflic, parezlər) və qıcolmalar (epilepsiyalar).

Əgər həkim bu dörd əlamətin hər birini heç olmasa 5 faiz aşağı sala bilirsə, bu, böyük göstəricidir. Lakin bu əlamətlərin üçünün eyni uşaqda olması artıq fəlakətdir.

Z.Əliyev bildirir ki, valideynlər də nevroloji problemləri olan uşaqların müalicəsinə ciddi yanaşmırlar. Məsələn, qıcolma kəsilən kimi, dərmanları yarımçıq saxlayır, müalicəni davam etdirmirlər: "Əgər müalicəyə düzgün əməl olunmasa, uşaqlarda tutmaları düzəlsə də, əqli problemləri həll olunmayacaq. Bəzən valideynlər uşağın özünü yerə çırpmasına da adi hal kimi, şıltaqlıq kimi yanaşırlar. Halbuki, bu, problemlərdən xəbər verir. Bu məsələlərlə bağlı mediada, televiziyalarda maarifləndirici verilişlər artırılmalıdır ki, valideynlər bu haqda daha çox məlumatlı olsunlar".

# Qış imtahan sessiyası başa çatdı

**Azərbayan Tibb Universitetində ötən ilin dekabrın 29-dan başlayan payız semestrinin qış imtahan sessiyası bu il fevralın 5-də başa çatıb.**

Amma üzürlü və ya üzürsüz səbəbə görə imtahana qatılmayan, müvəffəqiyyət qazanmayanlar təkrar imtahan vermək hüququndan istifadə ediblər. Bu səbəbdən təkrar imtahanlar fevralın 6-dan başlayıb, 13-dək davam edibdir. Bu barədə "Təbib"ə açıqlama verən universitetin İmtahan Mərkəzinin direktoru, dosent Şahin Bayramov ümumilikdə 48 minə yaxın keçirilən imtahanda 7500-ə yaxın tələbənin iştirak etdiyini bildirib: "İmtahanlar əvvəlcədən tərtib olunmuş plan-sxem əsasında aparıldı. Proses zamanı heç bir problem qeydə



alınmadı. Onu deyə bilərəm ki, Gəray müəllimin başladığı islahat proqramı artıq öz bəhrəsini verməkdədir. Alınan nəticələr onu göstərir ki, islahatlar özünü doğruldur, hiss olunur ki, tələbələr dərsləri mənimsəmək üçün əvvəlki illərə nisbətən daha çox cəhd göstərirlər. Bu da onların biliyinin artırılmasına müsbət mənada təsir göstərir."

# Tibb bacıları üçün növbəti təkmilləşdirmə kursu təşkil edilib

**Fevralın 8- də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında tibb bacıları üçün növbəti təkmilləşdirmə kursu təşkil edilib.**



Tədris Cərrahiyyə Klinikasının Baş Tibb bacısının təşəbbüsü ilə həyata keçirilən tədbirdə neyrocərrhiyyə və travmatologiya-ortopediya şöbələrinin tibb bacıları iştirak ediblər. Hər iki şöbənin məsul tibb bacıları "Hipofiz adenoması", "Artroplastika, Bud canaq koksartrozu" mövzularında öz təcrübələrindən və apardıqları araşdırmalar əsasında öyrəndikləri yenilikləri həmkarları ilə bölüşüblər.

Qeyd edilib ki, bilik, bacarıq və peşəkar vərdişlərin inkişaf etdirilməsi yolu ilə əhaliyə keyfiyyətli tibbi xidmətin göstərilməsi məqsədilə həyata keçirilən təkmilləşdirmə kursları mütamadi olaraq klinikanın bütün şöbələrində həyata keçiriləcək.

**ATU-nun mətbuat xidməti**

# Klinikamızın üz-çənə cərrahları daha bir unikal əməliyyat icra ediblər

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının üz-çənə cərrahları daha bir unikal əməliyyat icra ediblər. Klinikaya müraciət edən və üzündə damar mənşəli şiş olan xəstə əməliyyat edildikdən sonra defektlər damar ayaqcığı üzərində toxuma köçürülməsi ilə aradan qaldırılıb.**



Bu barədə klinikanın ağız və üz-çənə cərrahiyyəsi şöbəsinin müdiri Məhəmməd Davudov məlumat verib.

O, həmçinin deyib: "Təxminən 50-55 yaşlı Gürcüstan vətəndaşı olan xəstənin üzündə damar mənşəli xoşxassəli şiş var idi. Şiş çox böyük nahiyəni tutmuşdu. Belə ki, o, üzün aşağı hissəsi, alt dodaq, yanaq, boyun nahiyəsini əhatə edirdi. Şiş götürüldükdən sonra əmələ gələn defekti döş əzələsindən alınan bir toxuma parçası ilə bərpa etdik. Cərrahi müdaxilə 4-5 saat davam etdi. Ən əsası isə köçürülən toxumalar regenerasiya olundu".

Şöbə müdiri belə əməliyyatların son bir neçə ildir ki, klinikada icra olunduğunu da diqqətə çatdırıb.

# Rezident xəstənin klinik təhlilini aparıb

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında xəstə təhlili ilə bağlı növbəti müzakirə aparılıb.**



Pediatriya ixtisası üzrə IV kurs rezidenti Samirə Nəsibova mövzuya uyğun olaraq aktiv D vitamininin əsas funksiyaları haqqında məlumat verərək bildirib ki, raxitin əmələ gəlməsinin əsas səbəbi D vitamininin endogen və ekzogen defisitidir: "Kalsium və fosforun orqanizmə kifayət qədər daxil olmaması uşaqların inkişafının zəifləməsinə səbəb olur. Orqanizmə qida ilə daxil olan D vitamini qaraciyər və böyrəkdə dəyişikliyə uğrayır, 1,25 dihidrok-



si vitamin D əmələ gəlir, o hormona bənzər fəaliyyət göstərir. Bağırsağın hüceyrələrinin genetik aparatına təsir edərək, Ca bağlayıcı və onun transportunu təmin edən zülal sintezini artırır".

Bundan sonra klinikanın uşaq pulmonologiya, allerqologiya və endokrinologiya şöbəsində "Vitamin D rezistent Raxit tip 2" diaqnozu ilə müalicə olunan 18 aylıq oğlanın üzərində aparılan klinik təhlilin nəticələrini diqqətə çatdıran S.Nəsibova qeyd edib ki, bu tip xəstələrdə sinir, əzələ əlamətləri ilə yanaşı kəllə sümüklərində kraniotabes, sümüklərin yumşalmasından başın arxa hissəsinin yastılaşması əlamətləri də görünür, bu səbəbdən böyük əmgəyin bağlanması gecikir. Döş qəfəsində, ətraflarda aydın deformasiyalar nəzərə çarpır. Daxili orqanlarda funksional pozulmalar müşahidə edilir.

S.Nəsibova yeriyə bilməmə şikayəti ilə qəbul olunan xəstənin ortoped müayinəsi zamanı ikitərəfli bud başı sümüyünün formalaşmaması total alopesiya ağır fiziki inkişaf ləngiməsi səbəbi ilə müayinəyə göndərildiyni bildirib. Eyni zamanda xəstənin fiziki göstəricilərini qiymətləndirmək məqsədilə fiziki və laborator, həmçinin genetik müayinəyə də cəlb olunduğunu deyib. Genetik nəticəyə əsasən, xəstədə aşkarlanan əlamətləri indiyə qədər ədəbiyyatlarda rastlanmayan yeni vdr gen mutasiyası kimi səciyyələndirib. Yeni vdr gen mutasiyasının aşkarlandığını, xəstənin diaqnozunun ilk olaraq klinikamiz tərəfindən təsdiqləndiyini söyləyib.

O, xəstəliyin yeganə müalicəsinin vitamin D-nin aktiv metoboliti sayılan kalsitriolla həyata keçirildiyini bildirərək 3 aylıq müalicə müddətində Ca, P səviyyəsində artımın, ALP, PTH səviyyəsində azalmanın, xəstədə bud sümüyü başının formalaşmaqda olduğunun, 2 sm boy artımının müşahidə edildiyini müsbət hal kimi dəyərləndirib.

**ATU-nun mətbuat xidməti**

## «Nəsimi ili»

**İmadəddin Nəsimi (1369-1417) Ümumşərq miqyasında qüdrətli şair kimi tanınan və qəbul olunan böyük filosof sənətkardır. Nəsimi Azərbaycan hürufizm ədəbiyyatının görkəmli yaradıcısıdır. Nəsimi böyük ədəbi məktəb yaratmışdır. Seyid İmadəddin Nəsimi görkəmli Azərbaycan şairi və mütəfəkkiridir. O, Azərbaycanın qədim elm və ədəbiyyat mərkəzlərindən biri olan Şamaxı şəhərində dünyaya gəlmişdir.**



Müxtəlif ədəbiyyatlarda Nəsiminin doğum yerinə dair müəyyən ölkələr və şəhərlər barədə qeyd edilən versiyalar onun anadan olduğu yerə aid olmayıb, tərcümeyi-halının digər hadisələri, xüsusən hürufilik təriqətini yaymaq üçün etdiyi səfərlər, müvəqqəti məskunlaşdığı məkanlarla əlaqədardır.

# NƏSİMİNİN FƏLSƏFİ GÖRÜŞLƏRİNƏ NƏZƏR

Belə ki, Nəsimi hürufizm ideyalarını yaymaq üçün Azərbaycan vilayətlərindən başqa, həm də İranda, Türkiyədə, İraqda, Suriyada olmuş və geniş təbliğat işləri aparmışdır.

İmadəddin Nəsiminin həyatda və sənətdə rəhbər tutduğu hürufilik təliminin görkəmli yaradıcılarından Fəzlullah Nəimi Astrabadi (1340-1394) ilə əlaqələri də maraq doğuran mühüm hadisələrlə bağlıdır. Öz dövrünün görkəmli şəxsiyyətləri olmuş bu böyük mütəfəkkirlərin əlaqələri haqqında müxtəlif versiyalar mövcuddur.

Fəzlullah Nəiminin qızı ilə ailə qurması da sadəcə tərcümeyihal göstəricisi olmayıb, Nəsiminin Nəimi ilə əqidə və amal birliyinin mühüm faktlarından biridir. Eyni zamanda, İmadəddin Nəsiminin Şirvandan ayrılıb son dəfə Türkiyə-Suriya səfərinə gedərkən Naxçıvana gəlib, Xanəgahda Fəzlullah Nəimi ilə görüşməsi haqqındakı rəvayətlər də ədəbi-ictimai fikir tariximizin nadir səhifələrindən biri olmaqla bərabər, onların arasındakı münasibətlərin dərinliyini nümayiş etdirir. Fəzlullah Nəimi hürufizmin mükəmməl nəzəriyyəsini, İmadəddin Nəsimi isə böyük poeziyasını yaratmış qüdrətli şəxsiyyətlərdir. Bundan başqa, İmadəddin Nəsiminin Şərqdə qəzəl janrında böyük şeir xəzinəsi yaratmış Hafiz Şirazi ilə yaxın münasibətlərinin olması onun dövrün ədəbiyyat aləmində əsas simalardan biri kimi; qəbul edildiyini düşünməyə əsas verir.

Orta əsr klassik Azərbaycan lirikasının bənzərsiz nümunələrini yaratmış İmadəddin Nəsiminin şeirləri insanın qüdrəti haqqında himn kimi səslənir. Nəsiminin şeirlərində kamil insan olmağa qüvvətli çağırışlar ifadə edilmişdir.

O, kamil insanı təkcə real dünyanın yox, geniş mənada kainatın ən uca varlığı kimi vəsf etmişdir:

*Mərhəba, ey bəhri-zatın gövhəri-yekdanəsi,*
*Şəmi-vəhdətdir cəmalın, kün-fəkan pərvanəsi.*

Mənəvi kamillik konsepsiyasını ifadə edən Şərq poeziyasında Nəsiminin lirikası fərqli bir mövqeyə malikdir. O, əsərlərində idealla insanlıq arasında bərabərlik yaratmağa nail olmuşdur. Daha doğrusu, İmadəddin Nəsimi insanı ilahi qüdrətə malik ideal miqyasında vəsf etmişdir. Onun şerlərində insan orta əsrlər Şərq və Azərbaycan poeziyasında olduğu kimi, yaxud aşiqanə üslubdan daha çox konkret olaraq fərdin mənəvi ucalığı, şəxsiyyətin daxili azadlığı və əzəməti formatında təqdim olunmuşdur. Nəsimi insanı klassik Azərbaycan şeirindəki eşq mehrabından çıxararaq, ilahi varlıq müstəvisinə doğru yol gedən həqiqət aşiqi qismində tərənnüm etmişdir. Nəsimi daha çox aşiqanə ruhda inkişaf edən Azərbaycan poeziyasında ictimai motivlərin meydanını genişləndirmişdir. Bundan başqa, Nəsiminin poeziyasında nəsihətçilik arxa planda qalmış, həyat fəlsəfəsi və mübarizə ruhu ön mövqeyə keçmişdir. İmadəddin Nəsimi özü də keşməkeşli tərcümeyi-halı və mübariz ruhlu şeirləri ilə kamil insan obrazının möhtəşəm şair-mütəfəkkir abidəsi kimi ucalır.

Fikrimizcə, İmadəddin Nəsiminin "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" misrası ilə başlanan məşhur şeiri İmadəddin Nəsiminin mükəmməl avtoportretidir. Sənəti və şəxsiyyəti haqqında müasirlərindən tutmuş tədqiqatçılarına qədər məğrur şairin barəsində yazılanların hamısında "Sığmazam" bəyanatı Nəsiminin real siması və idealını mənalandıran açar anlayışı kimi göstərilir.

Bu, Şərq poeziyasında insan haqqında ən möhtəşəm poetik monoloqdur.

"Sığmazam" qəzəli kövnü-məkana, cism ilə cana, dəhrüzəmana və cahana sığmayan qüdrətli Azərbaycan şairinin bənzərsiz ucalığının şərhi-bəyanıdır. Bu, həyatda və sənətdə Nəsimi səviyyəsinə çata bilməyin poetik bəyanatıdır:

*Məndə sığar iki cahan, mən bu cahana sığmazam,*
*Gövhəri-laməkan mənəm, kövnü-məkana sığmaza*

Nəsiminin lirikası özünəməxsus sənətkarlıq xüsusiyyətlərinə malikdir. Ənənəvi klassik şeir üslubunda yazıb-yaratmasına baxmayaraq o, orta əsrlər Azərbaycan lirikasını bənzərsiz bədii təsvir və ifadə vasitələri ilə zənginləşdirmişdir. Təsvir və ifadə vasitələrindəki yeniliklər Nəsimi sənətinin orijinallığını müəyyən etmişdir. Onun hər misrasında bir neçə təşbehin işləndiyi qəzəlləri təkrarsız sənət nümunələridir. Şairin "Nigarım, dilbərim, yarım, ənisim, munisim, canım" misrası ilə başlayan 7 beytlik qəzəlinin bütün misralarının başdan-başa bənzətmələrdən və daxili qafiyələrdən ibarət olması ümumşərq poeziyasında nadir sənət hadisəsi sayılmağa layiqdir.

*Nigarım, dilbərim, yarım, ənisim, munisim, canım,*
*Rəfiqim, həmdəmim, ömrüm, rəvanım, dərdə dərmanım.*
*...Gülüm, reyhanım, aşcarım, əbirim, ənbərim, udum,*
*Dürüm, mirvarim, kanım, əqiqim, lə'lü mərcanım.*
*Diləfruzum, vəfadarım, cigərsuzum, cəfakarım,*
*Xudavəndim, cahandarım, əmirim, şahü sultanım.*

Seyid İmadəddin Nəsimi böyük təfəkkür şairidir. Onun fəlsəfəsində hürufizm ideyaları və ədəbiyyatın idealları öz əksini tapmışdır. Nə ədəbiyyatda müəyyən ənənəsi "Ən əlhaqq" (mənəm Allah) ideyasını ədəbi təlim sayəsinə çatdırmışdır.

Nəsiminin panteist yaradıcılığında insan ilə Allahın yaxınlığı açıq-aydın görünür. O, insanı qiblə adlandırır, onu yüksəklərə qaldırırdı. "Məndə sığar iki cahan, mən bu cahana sığmazam", yaxud da "Həq-təala adam oğlu özüdür" deyərək o, insanı Allahla eyniləşdirirdi. Nəsimi sufiliyin "Mənəm Allah!" şüarını da qəbul edirdi. Bu əqidəsinə görə 1417-ci ildə Hələb şəhərində onun diri-diri dərisini soymuşdular. Nəsimiyə görə kainatın bütün sirləri insanda təcəssüm edir. İnsan zəkası isə ilahi varlığı və dünyanı dərk edə bilər. O ruhun cansız aləmdən bitkilərə, ordandan da heyvana keçərək, sonra insana doğru inkişaf etdiyini göstərirdi. Onun şerlərində ilk materiya, surət cövhər (substansiya), ərəz (aksidensiya), səbəb-nəticə, vacib və mümkün kimi fəlsəfi anlayışlara tez-tez rast gəlinir.

İmadəddin Nəsimi Azərbaycandan getdikdən sonra müxtəlif fasilələrlə Türkiyədə, İranda, İraqda yaşamış, nəhayət, Suriyada olmuş, Hələbdə məskunlaşmış və olduğu yerlərdə hürufizm ideyalarını geniş şəkildə təbliğ etmişdir. Onun təbliğ etdiyi hürufi ideyaları heç də hər yerdə birmənalı qarşılanmamış, müzakirə və mübahisə mövzusu olmuşdur. Mütəfəkkir şairin əleyhdarları bundan istifadə edərək, haqqında müxtəlif böhtan və şayiələr yaymışlar. İmadəddin Nəsiminin məsləki yolunda faciəli şəkildə edam olunması onun sarsılmaz, möhkəm əqidəsinin isbatıdır. Buna baxmayaraq, Nəsiminin Suriyanın Hələb şəhərindəki məzarı xalq tərəfindən həmişə ehtiramla ziyarət olunmuş və bu məqbərə ibadətgaha çevrilmişdir. Çox təəssüf ki, son dövrlərdə Suriyada gedən acınacaqlı müharibə şəraiti böyük şairin məqbərəsi və məzarı ətrafında da müəyyən dağıntılara səbəb olmuşdur. Azərbaycan ziyalılarının nümayəndə heyəti, tanınmış alimlər və şairlər bir neçə dəfə İmadəddin Nəsiminin məqbərəsini ziyarət etmişlər.

Azərbaycan dövləti müstəqillik dövründə də böyük şair İmadəddin Nəsimi irsinin tədqiqi, nəşri və təbliği istiqamətində məqsədyönlü və ardıcıl siyasət həyata keçirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı ilə 2017-ci ilin may ayında İmadəddin Nəsiminin vəfatının 650 illiyinin Parisdə UNESCO-nun baş iqamətgahında beynəlxalq səviyyədə təntənəli surətdə qeyd edilməsi bu qüdrətli sənətkarı dünyaya tanıtmaq istiqamətində yeni səhifə açmışdır. Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında"kı 15 noyabr 2018-ci il tarixli Sərəncamı böyük mütəfəkkir şairə dövlət səviyyəsində bəslənən yeni və yüksək münasibəti aydın surətdə ifadə edir.

**Hacı HEYDƏROV,**
*İctimai fənlər kafedrasının dosenti*

# Həkimlərimiz daha bir uğurlu əməliyyat icra ediblər

**◆ 40 yaşlı xəstənin döş boşluğundakı sinir mənşəli törəmə endoskopik üsulla xaric edilib**



ATU-nun Tədris Cərrahiyyə Klinikasının döş qəfəsi (torakal) cərrahı Arif Ağayevin sözlərinə görə, pasient şöbəyə müraciət etməmişdən öncə bir neçə mütəxəssislə görüşüb: "Həmin müəssisələrdə xəstəyə açıq üsulla əməliyyat təklif olunub. Lakin o, əməliyyatın qapalı üsulla aparılmasını istədiyi üçün başqa həkimlərə də müraciət etməyi qərara alıb. Bizə müraciət edəndə əməliyyatın qapalı olmasının mümkünlüyünü bildirdik".

Azərbaycanda torakal cərrahiyyə sahəsində bir sıra ilklərin müəllifi olan A. Ağayev qeyd edib ki, bu əməliyyat mürəkkəbliyi və çətinliyi ilə seçilib. Əməliyyatın üsulu, yəni qapalı üsul dünyanın çox az müəssisələrində icra olunur: "Endoskopik əməliyyatların icrası digərlərindən fərqli olaraq daha həssas yanaşma tələb edir. Ona görə də cərrahlar texniki çətinliklərlə qarşılaşırlar. Bununla yanaşı, şiş təhlükəli sahədə - damar və sinirlərin üzərində yerləşirdi. Ona görə də hər an qanama təhlükəsi var idi. Həmçinin əməliyyatdan sonra nevroloji problemlərin yaranması riski də ola bilir. Sözügedən cərrahi əməliyyat üç saat davam etdi və uğurla yekunlaşdı".

Torakal cərrahın sözlərinə görə, bəzən həkimlər bu kimi mürəkkəb cərrahi əməliyyatların icrasının xarici ölkələrdə etdirilməsini tövsiyə edirlər. Ancaq təcrübə və müasir texnologiyaların tətbiqi ilə bu kimi riskli cərrahi əməliyyatların icrası və risklərin minimuma endirilməsi Azərbaycanda da mümkündür.

# ATU əməkdaşının məqaləsi ABŞ-da dərc olunub

**Həkim-psixiatr, Azərbaycan Tibb Universitetinin psixiatriya kafedrasının assistenti İkram Rüstəmovun məqaləsi ABŞ-da dərc olunan elmi kitabda yer alıb.**



Laurie J.Glader və Richard D.Stevenson tərəfindən təqdim olunan "Serebral iflicli uşaq və gənclər: Qulluq və idarəetmə» kitabında dünyanın müxtəlif ölkələrində uşaq psixatriyası sahəsində tanınmış mütəxəssislərin məqalələri dərc olunub.

Britaniyanın "Mac Keith Press" nəşriyyat evi tərəfindən təqdim olunan




kitabda serebral iflici olan uşaqlarda müşahidə olunan digər xəstəliklərin idarə olunması barədə söhbət açılır. Kitab bu sahədə fəlaiyyət gösətərən həkimlər üçün, həm də serebral iflic xəstəsi olan uşaqların valideynləri üçün praktiki vəsait hesab edilir. Burada serebral iflic xəstələrinə qulluq üçün lazım olan məsələlərdən söz açılıb. Kitabın hər bölümündə məqalələrin rezyumesi verilib.

Bu kitabda azərbaycanlı mütəxəssis İkram Rüstəmovun "Serebral iflicli uşaq və yeniyetmələrin psixi sağlamlığı" mövzusunda məqaləsi işıq üzü görüb.

Qeyd edək ki, İkram Rüstəmov uşaq psixiatriyası sahəsində tanınmış mütəxəssislərdəndir. O, İstanbul Universitetinin Cərrahpaşa Tibb fakültəsində oxuyub. Daha sonra psixiatriya və uşaq nevrologiyası üzrə rezidentura təhsili alıb. 2004-cü ildə Cərrahpaşa Tibb Fakültəsində həkim-psixiatr kimi çalışıb, daha sonra İstanbulda özəl həkimlik fəaliyyəti ilə məşğul olub. 2010-2011-ci illərdə Mərkəzi Klinik Xəstəxanada, 2012-ci ildən isə Azərbaycan Tibb Universitetinin psixiatriya kafedrasında çalışır. Tədris Türapevtik Klinikasında həkim-psixiatrdır.

Tibb elmləri üzrə fəlsəfə doktoru İkram Rüstəmov Harvard Universiteti Boston Uşaq Xəstəxanasının inkişaf xəstəlikləri departamentinin elmi işçisidir. 10-a yaxın elmi işin müəllifidir. Harvard Universitetinin İctimai Sağlamlıq Fakültəsində Biostatistik, Epidemiologiya və Elmi tədqiqatların etik aparılma prinsipləri ilə əlaqəli kurslar keçib.

"Mac Keith Press"in oxucuları əsasən sinir sistemi sahəsində fəaliyyət göstərən həkimlər, pediatr və cərrahlardır. Bu şirkətin hazırladığı nəşrlər sosial işçilər, pedaqoqlar, həmçinin serebral iflicli uşağı olan ailələr üçün əhəmiyyətlidir. Uşaq nevrologiyasına aid jurnal da nəşr olunur.

# Yaşlı qadına böyrək köçürülüb



**Azərbaycan Tibb universitetinin Tədris Cərrahiyyə Klinikasında uğurlu böyrək köçürülməsi əməliyyatı icra olunub. Bu barədə klinikanın transplantologiya şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Anar Namazov məlumat verib.**

A.Namazov bildirib ki, fevralın 8-də əməliyyat 50 yaşlı qadında aparılıb. Bu xanım böyrək folikistozu irsi xəstəliyi ilə əlaqədar klinikaya müraciət edib: "Xəstənin nəslində bir neçə nəfər dializ xəstəsidir. Bizə müraciət edən qadın da il yarımdır ki, dializ xəstəsi idi. Xəstəyə yaxın qohumu tərəfindən böyrək köçürülməsinə dair qərar verildi. Ətraflı müayinələrdən sonra orqanın toxuma uyğunluğu təsdiqləndi".

Artıq ATU-nun Tədris Cərrahiyyə Klinikasında xəstəyə böyrək köçürülməsi əməliyyatı uğurla icra olunub. Əməliyyat 5 saata yaxın davam edib. Əməliyyatdan 3 gün sonra donor, 1 həftə sonra isə böyrək köçürülən şəxs evə yazılıb.

# 60 yaşlı xəstənin çanaq sümüyünün sınığı əməliyyat olunub



**Fevralın 11- də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında daha bir çətin əməliyyat uğurla sona yetib. Belə ki, bir həftə əvvəl travma almış xəstə çanaqda sınıq şikayəti ilə klinikaya müraciət edib.**

Müayinələr nəticəsində 60 yaşlı xəstənin çanağında qəlpəli sınıq diaqnozu təsdiqlənib. İki saat davam edən əməliyyat ATU-nun Tədris Cərrahiyyə Klinikasının travmatologiya-ortopediya şöbəsinin müdiri, dosent Cəfər Nəsirli, mikrocərrah Nicat Səttarov, tibb bacısı Şahanə Şükürova, rezidentlər Kənan Quliyev və Turan İsgəndərzadədən ibarət komanda tərəfindən aparılıb. Hazırda xəstənin vəziyyəti qənaətbəxşdir.

**ATU-nun mətbuat xidməti**

# Tibbi mikrobiologiya və immunologiyadan yeni dərslik

*Zeynalova S.Q., Ağayeva N.A., Bayramov A.Q., Əhmədov İ.B.*



"Tibbi mikrobiologiya və immunologiya" kitabı orijinal üslubda hazırlanaraq, son zamanlarda tərtib edilmiş tədris proqramı əsasında yazılmışdır. Bu dərslik ictimai səhiyyə fakültəsinin tələbələri üçün nəzərdə tutulmuşdur. Lakin digər fakültənin tələbələri də bu dərslikdən yararlana bilərlər.

Kafedra tərəfindən təcrübə dərsinə həsr olunmuş sonuncu kitabın yazılmasından 10 il keçir və ötən müddətdə tədris proqramlarının təkmilləşdirilərək yenidən tərtib edilməsi bu dərsliyin yazılması zərurətini doğurmuşdur.

Dərslikdə yeni seroloji reaksiyalar, yeni viruslar, əvvəllər proqramda olmayan, indi isə keçilməsi zəruri olan bir sıra mövzular təkmilləşdirilmiş və tələbələrin infeksion xəstəliklərin diaqnostikasına dair bilik və vərdişlərinin daha da mükəmməlləşdirilməsinə şərait yaradılmışdır.

Ümumi hissədə tələbələrin başa düşəcəyi sadə və anlaşılan tərzdə mikroorqanizmlərin morfo-bioloji və kultural xassələrinin öyrənilmə üsulları kifayət dərəcədə şərh olunmuşdur. Eləcə də infeksion xəstəliklərin diaqnostikasında seroloji üsulun əhəmiyyəti hərtərəfli izah edilmişdir.

Xüsusi mikrobiologiya bölməsində isə xəstəliklərin laborator diaqnostika üsulları genişliklə aydınlıq gətirilmişdir.

Bununla yanaşı, bir sıra xəstəliklərin (Məsələn, Laym xəstəliyinin, Psevdomembranoz kolitin və s. infeksion xəstəliklərin) mikrobioloji diqanostikası ilk dəfə verilmişdir.

Beləliklə, 2019-cu ildə nəşr olunmuş "Tibbi mikrobiologiya və immunologiya" dərsliyi ATU-nun bütün fakültələrinin tələbələri üçün yararlı dərslik olmaqla, təcrübi məşğələ dərslərini tam əhatə edir.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

### Kafedraların dosentləri:

- Ümumi və toksikoloji kimya kafedrası - 1 yer
- Histologiya, embriologiya və sitologiya kafedrası - 1 yer (0,5 vahid)

### Kafedraların assistentləri:

- Travmatologiya və ortopediya kafedrası - 2 yer (0,5 vahid)
- III daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- III cərrahi xəstəliklər kafedrası - 1 yer
- II mamalıq və ginekologiya kafedrası - 1 yer (0,75 vahid)
- II daxili xəstəliklər kafedrası - 2 yer (0,5 vahid)
- Ailə təbabəti kafedrası - 1 yer
- Ümumi gigiyena və ekologiya kafedrası - 1 yer
- Ortopedik stomatologiya kafedrası - 2 yer (0,5 vahid)
- Anesteziologiya və reanimatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Anesteziologiya və reanimatologiya kafedrası - 1 yer
- I daxili xəstəliklər kafedrası - 3 yer (0,5 vahid)
- I cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- III cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Neyrocərrahiyyə kafedrası - 1 yer
- Histologiya, embriologiya və sitologiya kafedrası - 2 yer
- Normal fiziologiya kafedrası - 1 yer (0,5 vahid)
- II mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq kafedrası - 1 yer
- Psixiatriya kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji fiziologiya kafedrası - 2 yer
- Epidemiologiya kafedrası - 1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası - 1 yer
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 2 yer (0,5 vahid)
- Xarici dillər kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi və toksikoloji kimya kafedrası - 1 yer (0,5 vahid)
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)

### Kafedranın baş müəllimi:

- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer

### Kafedranın müəllimi:

- Normal fiziologiya kafedrası - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14
Telefon: 597-10-08.

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**2018-2019-cu tədris ilindən başlayaraq, kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-halın çap forması və elektron variantı. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinika və laboratoriyalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müəllimin bal-reytinq cədvəli.
10. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd:** ***ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci, 7-ci və 9-cu bənddəki sənədlərin əvəzinə sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.***

# Rezidentlərin yekun qiymətləndirilməsinə dair treninq

**Fevralın 14-də ATU-nun Tədris-Cərrahiyyə Klinikasının Treninq Mərkəzində müvafiq ixtisaslara uyğun kafedraların müəllimləri ilə rezidentlərin yekun qiymətləndirilməsinə dair treninq keçirilib.**



Treninqdə çıxış edən rezidentura və magistratura şöbəsinin müdiri, professor Rizvan Məmmədov bu ildən etibarən rezidentlərin yekun imtahanlarında müəyyən dəyişikliklərin planlaşdırıldığını qeyd edib. Bu məsələnin ciddiliyini diqqətə çatdıran şöbə müdiri tərtib edilmiş test tapşırıqlarının əsas məxfilik qorunmaqla tam qapalı şəkildə aprel ayına qədər təqdim edilməsinin məqsədəuyğun olduğunu deyib. O, vurğulayıb ki, testi tərtib edərkən sonda ədəbiyyat siyahısı və testi hazırlayan müəllimlərin adı və söyadı mütləq göstərilməlidir.

Sonra təhsilin keyfiyyətinin təminatı və innovasiya şöbəsinin müdiri, professor Akif Qurbanov yeni tipli test tapşırıqlarının tərtibinə dair dəyişikliklər barədə məlumat verib və bu yeni qaydalar ilə treninq iştirakçılarını tanış edib.

Rezidentlərin yekun imtahanlarında planlaşdırılan dəyişikliklərin mahiyyətini izah edən A.Qurbanov rezidentlərin yekun imtahanlarında 150 klassik və 20 yeni tipli test tapşırığının tərtib olunmasının zəruriliyini və klassik test tapşırıqlarının 30%-nin (təqribən 50 test tapşırığı) situasiya testləri kimi tərtib ediləcəyini bildirib.

Sözünə davam edən şöbə müdiri qeyd edib ki, rezidentlərin yekun qiymətləndirilməsinin digər mərhələsi isə ənənəvi olaraq bacarıq imtahanlarından ibarət olacaqdır. Yekun bacarıq imtahanlarında nəzərdə tutulan dəyişikliklərdən bəhs edən A.Qurbanov diqqətə çatdırıb ki, 4 ixtisas (cərrahiyyə, terapiya, mamalıq-ginekologiya və pediatriya) üzrə bacarıq imtahanlarının isə OSKİ tipində keçirilməsi planlaşdırılır.

Tədbirdə iştirakçıları düşündürən suallar Akif Qurbanov və Rizvan Məmmədov tərəfindən ətraflı cavablandırılıb.

Treninqin sonunda OSKİ ilə əlaqədar hazırlıq məsələləri də müzakirə edilib.

**M.ƏLƏKBƏRLİ**

## Qulaqlıqla musiqi dinləmək nəticəsində 1 milyarddan çox adam eşitmə qabiliyyətini itirə bilər

**Planetimizdə 12-35 yaş arasında 1 milyarddan çox insan smartfonlar və pleyerlərdən qulaqlıqla gursəsli musiqi dinləmək nəticəsində eşitmə qabiliyyətini itirə bilər.**



AZƏRTAC Dünya Səhiyyə Təşkilatının (DST) saytına istinadla xəbər verir ki, bunu martın 3-də qeyd olunan Beynəlxalq Eşitmə Qabiliyyətinin Qorunması Günü ərəfəsində DST və Beynəlxalq Elektrik Rabitəsi İttifaqının hazırladığı tövsiyə xarakterli hesabatın müəllifləri bildiriblər.

DST-nin baş eksperti Şelli Çadxa deyib: "Təsəvvür edin ki, siz spidometri və sürət məhdudiyyəti olmayan maşında şütüyürsünüz. Biz təklif edirik ki, smartfonlar da bu cür "spidometrlə" təchiz olunsun. Bununla səsin səviyyəsini müəyyən etmək və limitin aşılmasını elan etmək mümkün olsun".

Tövsiyələrdə təklif olunur ki, smartfonlarda və rəqəmsal audiopleyerlərdə yerləşdiriləcək sistem səs yazılarının dinlənilməsi müddətini və səsin gurluğunu müəyyən edə bilsin. Bununla da limitin aşıldığı zaman valideynlər uşaqlarına nəzarət edə bilərlər. Həmçinin gurultu təhlükəli həddə çatdıqda dinləyici xəbərdar edilə bilər.

DST-nin rəhbəri doktor Tedrosun sözlərinə görə, eşitmə qabiliyyətinin itirilməsinin qarşısını almaq üçün çoxlu vasitənin olduğu bir şəraitdə insanların musiqi dinləyərək kar olmasını əngəlləmək mümkündür. "İnsanlar başa düşməlidir ki, itirilən eşitmə qabiliyyəti bərpa etmək mümkün deyil. Bizim yeni tövsiyələrimiz gənclərə musiqidən zövq almağa yanaşı, sağlamlığını da qorumağa kömək edəcək", -deyə təşkilatın başçısı vurğulayıb.

DST-nin məlumatına görə, planetimizin sakinlərinin 5 faizindən çoxunun – 466 milyon nəfərin eşitmə qabiliyyəti ilə bağlı ciddi problemləri mövcuddur. Onların əksəriyyəti orta və aşağı gəlir səviyyəsi olan ölkələrdə yaşayan yaşlı insanlardır. 2050-ci ildə isə hər on nəfərdən biri bu problemlə üzləşəcək.

## Norveçdə üzən tunel layihəsi həyata keçiriləcək

**Geniş əraziyə yayılmış buzlaqları, körfəz və dağları olan Skandinaviya ölkəsi Norveçin qərb sahillərində 5,3 milyon insan yaşayır. Burada nəhayətsiz buz təbəqəsi ilə örtülmüş körfəzləri 1,100 kilometr məsafədə bərəyə yüklənmiş avtomobillə qət edərək cənubdakı Kristiansand və Trondheim şəhərlərinə çatmaq üçün 21 saat vaxt tələb olunur. Bu problemi həll etmək məqsədilə Norveç hökumətinin sifarişi ilə 40 milyard dollarlıq üzən tunel layihəsi hazırlanıb.**



AZƏRTAC CNN-ı istinadla xəbər verir ki, hazırda layihənin tərkib hissi olan dünyada ən böyük sualtı restoranın tikintisi başa çatmaq üzrədir. Sonrakı mərhələdə körpülər və dənizin 30 metr dərinliyində 27 kilometr uzunluğunda üzən tunel tikiləcək. Norveç bu tikintinin tamamlanması ilə bənzər layihələri həyata keçirən Çin, Cənubi Koreya və İtaliyanı geridə qoyacaq.

Norveçin İctimai Yollar Administrasiyasının (NPRA) məlumatında bildirilib ki, hökumətin dəstəklədiyi bu layihə üzrə tikinti işləri 2050-ci ildə başa çatdırılacaq. NPRA-nın layihə üzrə meneceri Kyersti Dunham qeyd edib ki, ölkənin yükdaşımalarının 50 faizi Kristiansand və Trondheim şəhərləri arasındakı yolun payına düşür. Onun sözlərinə görə, yüksək Avropa standartlarına cavab verməyən bu marşrut boyu insanlar avtomobillərdən və bərələrdən istifadə etməyə məcbur olur ki, bu da səyahəti həm əziyyətli, həm də uzunmüddətli edir. Hökumət rəsmisi əlavə edib ki, üzən tunel layihəsi kommersiya baxımından sərfəli olacaq və insanların rahatlığına xidmət edəcək.

CNN-in məqaləsində xatırladılır ki, üzən tunel ideyasının tarixi qədimdir. Hələ 1882-ci ildə britaniyalı arxitektor Edvard Rid İngilis körfəzi ilə bu cür tunelin tikilməsi təklifini irəli sürüb. Tunelin "üzən" adlanmasına baxmayaraq, onun gövdəsi dənizin altında möhkəm kabellərlə bərkidiləcək. Dənizin 30 metr dərinliyində dalğa və axınların zəif olduğunu nəzərə alan konstruktorlar tunelin etibarlı olacağına zəmanət veriblər.

### Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin I kurs, $218^{a\ 6\text{-}a}$ qrup tələbəsi Aslanzadə Nihad Vahid oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, $273^{b}$ qrup tələbəsi Xaspoladova Nüşabə Qələmxan qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $369^{b}$ qrup tələbəsi Usubov Araz Bəxtiyar oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

### Allah rəhmət eləsin!

Şüa diaqnostikası və şüa terapiyası kafedrasının əməkdaşları insan anatomiyası və terminologiya kafedrasının müdiri, professor Vaqif Şadlinskiyə qardaşı

**Azər Şadlinskinin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüzünlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti Şəmsa Rəşidovaya bacısı

**Rəna xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın dosenti Azər Vələdova anası

**Lütviyyə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi fizika və informatika kafedrasının əməkdaşları kafedranın baş müəllimi Aida Şərifovaya anası

**Səyyarə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98[c]
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200